

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 204 (23.616)

*25 noyabr 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

Prezident İlham Əliyev Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırıb. Sonra dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət ediblər. Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlayıb. Azərbaycan Prezidenti və birinci xanım məsciddə dua ediblər.

Dövlətimizin başçısı Ağdam məscidinin qarşısında çıxış edib. Noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsinin işğaldan azad edilməsi münasibətilə bütün ağdamlıları bir daha təbrik edən Prezident İlham Əliyev bildirib ki, döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Dövlətimizin başçısı bildirib ki, bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.

Prezident İlham Əliyev deyib ki, bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik.



## 2020-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2020-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 292 milyon 937 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 4978,2 manata çatmışdır.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 900 milyon 258 min 500 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 859 milyon 181 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 810 milyon 742 min 300 manatı və ya 94,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2020-ci ilin yanvar-oktyabr aylarında 431 milyon 390 min 100 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 20839 ton, süd istehsalı 79649 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,9 faiz, süd istehsalı isə 1,6 faiz artmışdır.

***

2020-ci ilin yanvar-oktyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 47 milyon 323 min manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 4,4 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 37 milyon 582 min 100 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,5 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 153 milyon 793 min 500 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,4 dəfə çoxdur. Verilmiş kreditlərin 16 milyon 205 min 600 manatı və yaxud 10,5 faizi qısamüddətli, 137 milyon 587 min 900 manatı və yaxud 89,5 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 noyabr 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 91075-ə çatmışdır ki, bunun da 79458-i və ya 87,2 faizi aktiv hesablardır. 2020-ci ilin yanvar-oktyabr aylarında açılmış 31462 bank hesabının 31453-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 noyabr 2020-ci il tarixə 1397-yə çatmışdır.

***

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin yanvar-oktyabr aylarında 386 milyon 846 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 334 milyon 49 min ABŞ dolları təşkil etmiş, 281 milyon 251 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

***

2020-ci ilin yanvar-sentyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 528 manata çatdırılmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 14,1 faiz çoxdur.

***

1 oktyabr 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 2685 nəfər artaraq 461 min 410 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsində iqtisadi sistemin fəaliyyəti

Son illər muxtar respublikada həm aqrar, həm sənaye sahələrində mühüm təkmilləşmələr və irəliləyişlərin əldə edilməsi göstərilən hərtərəfli qayğının ifadəsidir. Bunu özəl təsərrüfatların sayında, istehsal sənayesinin artım dinamikasında, ərzaq təminatının daha çox yerli istehsal hesabına ödənilməsində proqressiv meyillərin müşahidə olunması ilə görmək olar. Yerli istehsalın həcminin genişləndirilməsi hər bir bölgənin ərzaqla təmin olunmasında başlıca meyardır. Bu gün qürurla söyləmək olar ki, onilliklər öncədən fərqli olaraq muxtar respublika ehtiyacı olan bütün növ ərzaq məhsullarını özü ödəmək qabiliyyətindədir. Bu isə, ilk növbədə, iqtisadi subyektlərin burada səmərəli fəaliyyət göstərməsindən asılıdır. İqtisadi subyektlər həm fərdi təsərrüfatlar, müəssisələr, həm də dövlət orqanları və iqtisadiyyatın digər bölmələri səviyyəsində qarşılıqlı olaraq fəaliyyət göstərməkdədir. Ərzaq təhlükəsizliyi istiqamətində iqtisadi infrastrukturun qurulmasında müxtəlif dövlət orqanları, o cümlədən aqrar-sənayenin mühüm bölmələri, lizinq orqanları, müəssisələr və banklar xüsusi rol oynayırlar. Ərzaq təminatının gücləndirilməsində bitkiçiliyin və heyvandarlığın inkişaf etdirilməsi, torpaqdan və sudan səmərəli istifadə, baytarlıq xidmətinin yaxşılaşdırılması, təsərrüfat subyektlərinə maliyyə dəstəyinin göstərilməsi, qida məhsullarının keyfiyyətinə nəzarətin artırılması əsas tədbirlər hesab olunur. Buna görə də ötən dövrdə bu istiqamətdə düzgün qanunvericilik bazası yaradılıb, bir sıra Dövlət proqramları qəbul edilib. Muxtar respublikanın sosial-iqtisadi inkişafı üzrə müxtəlif illərə aid olan Dövlət proqramları, heyvandarlığın, tərəvəzçiliyin və meyvəçiliyin inkişafı istiqamətində hazırlanmış layihələr yeni istehsal sahələrinin yaradılmasına stimul olub. Nəticədə, torpaqlardan səmərəli istifadəyə uyğun olaraq muxtar respublika ərazisində yeni meyvə bağları və üzümlüklər salınıb, heyvandarlıq təsərrüfatları yaradılıb, ailə təsərrüfatlarının fəaliyyətinə geniş yer verilib. Belə layihələrin uğurlu icrası əhalinin məşğulluğunu təmin etməklə bərabər, artıq öz nəticələrini də göstərməkdədir. Təsadüfi deyil ki, muxtar respublikada daxili tələbatın ödənilməsi ilə yanaşı, müxtəlif məhsullar üzrə ixrac potensialı da yaranıb və məhsullarımız bir sıra qonşu ölkələrin bazarlarına çıxarılır.



Son illər ərzində kənd təsərrüfatı sahələri üzrə bütün istiqamətlərdə mühüm göstəricilər əldə edilib. 2020-ci ilin yanvar-oktyabr aylarında 431 milyon 390 min 100 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 20839 ton, süd istehsalı 79649 ton olub. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,9 faiz, süd istehsalı isə 1,6 faiz artıb.

Bu gün muxtar respublikada kənd təsərrüfatı sahəsinə ən aşağı faizlərlə kreditlər təklif olunur. Bundan əlavə, rayonlarda bank filialları yaratmaq və xidmət sahələrini müasirləşdirməklə təsərrüfat subyektlərinin fəaliyyətini asanlaşdırmaq işləri daim diqqətdə saxlanılır ki, bu da iqtisadi fəaliyyətin stimullaşdırılmasına öz töhfəsini verməkdədir.

**Eltun İBRAHİMOV**
***iqtisad üzrə fəlsəfə doktoru***

## Maarifləndirici tədbir keçirilmişdir



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində nazirliyin və tabeli qurumlarının əməkdaşlarının iştirakı ilə payız-qış mövsümünə hazırlıqla bağlı maarifləndirici tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası İqtisadiyyat nazirinin müavini Anar Əhmədov payız-qış mövsümündə nazirlik və onun tabeli qurumları tərəfindən qazanxana və istilik sistemlərinin daim diqqətdə saxlanıldığını qeyd etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Emin Qasımov və Afaq Alməmmədova çıxış edərək qazanxana maşinistləri, təsərrüfat müdirlərinə təhlükəsizlik məsələləri ilə bağlı zəruri məlumatları çatdırmışlar.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



*Müasirləşən kəndlərimiz*

# Kiçik yaşayış məntəqəsi böyük sevinc içərisindədir

***Zaman öz axarı ilə daim hərəkətdədir. Ötən zamandan qalan isə qurulub-yaradılanlardır. Bu xeyirxah missiyanı yerinə yetirən qurub-yaradanlara həmişə böyük ehtiram göstərilir. Son üç onillikdə muxtar respublikamızın bütün guşələri əsl tikinti meydançasına, bir qədər sonra müasir yaşayış məntəqəsinə çevrilib. Bu gün ən ucqar kəndlərimizdə belə, yaradılan şərait isə qədim diyarımızda bərqərar olmuş ictimai-siyasi sabitlik və bunun da məntiqi nəticəsi kimi sosial-iqtisadi inkişafın təmin edilməsidir. Babək rayonunun kəndləri də diqqət və qayğı ilə əhatə olunublar. Bu günlərdə yolumuzu həmin yaşayış məntəqələrindən birinə – Nəcəfəlidizə kəndinə saldıq. Həmin ünvana getməmişdən əvvəl kəndin adının etimologiyası barədə bir az məlumat aldıq.***

AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun "Naxçıvanın oykonimləri" kitabında kəndin adına XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid arxiv materiallarında rast gəlinir. 1936-cı ildə repressiyaya məruz qalan bu yaşayış məntəqəsinin adı Budenabad adı ilə əvəzlənsə də, özünə haqq qazandıra bilməyib. Hazırda kənd Nəcəfəlidizə adlanır.



Dünən

Məktəb



Bu gün

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Rasim İsmayılovun dediyinə görə, kənd əhalisi, əsasən, əkinçilik və heyvandarlıqla məşğul olur. Taxılçılığa xüsusi yer ayıran kənd sakinləri əsas gəlir mənbəyini də elə torpaqla bağlayıblar. Uzun müddət su azlığından əziyyət çəkən əhalinin əli torpaqdan soyumuşdu. Muxtar respublikamızda hər bir sahəyə göstərilən diqqət və qayğıdan öz payını alan bu yurd yeri Heydər Əliyev Su Anbarının tikintisi ilə özünün yeni dönəmini yaşamağa başlayıb. 2005-ci il dekabr ayının 19-da istifadəyə verilən Heydər Əliyev Su Anbarı susuz torpaqlarımızın su ilə təmin olunmasında böyük rol oynayır. Belə ki, anbar istifadəyə verildikdən sonra Babək rayonunun da suvarma suyuna olan tələbatı xeyli yaxşılaşdırılıb. Adıçəkilən yaşayış məntəqəsi də bu imkandan bəhrələnib.

Rasim müəllimlə söhbətimizi bu yurd yerinin sakinləri ilə tanış olaraq davam etdiririk. Qarşımıza çıxan ilk mənzilin qapısını döyürük. Salam verib, daxil olmağa icazə aldıqdan sonra adını öyrəndiyim Fatma xala bizi Azərbaycan xalqına məxsus qonaqpərvərliklə qarşılayır. Kəndlərində yaradılan şəraitə görə sevincinin həddi-hüdudu olmayan müsahibim: ay qızım, su həyat mənbəyidir, deyib atalarımız. Amma mənim fikrimcə, su elə həyatın özüdür. Su qıtlığı olan vaxtlarda kəndimizdə həyat da yox idi. Susuzluq ucbatından əkini-biçini olmayan kəndli torpaqdan əlini üzüb başqa bölgələrə axışırdı. Məhz elə susuzluq probleminin aradan qaldırılmasından sonra əhali torpaqdan iki əllə yapışıb, istədiyi məhsulu əkib-becərmək imkanları qazanıb. Bu gün bir qarış belə, əkilməmiş sahəmiz, demək olar ki, yoxdur. Elə bu bərəkətli torpaqlarımız sayəsində kəndlinin yaşayışı yüksək səviyyədədir.

Bu kiçik yaşayış məntəqəsinin sakinləri günlərdir ki, böyük sevinc içərisindədir. Son illərdə muxtar respublikanın hər bir ünvanında aparılan quruculuq siyasəti bu kənddən də yan keçməyib. Belə ki, Nəcəfəlidizədə kənd və xidmət mərkəzləri, məktəb binası tikilərək sakinlərin istifadəsinə verilib. Kənd mərkəzində yerləşən təşkilatların fəaliyyətinə hərtərəfli şərait yaradılıb.

Rasim müəllimdən ayrılıb kənd məktəbi ilə tanış oluruq. Məktəbin direktoru Kamal Əhmədovdan aldığımız məlumata görə 2001-ci ildən tam orta məktəb kimi, fəaliyyətə başlayan təhsil ocağının istilik sistemi yox dərəcəsində idi. Müəllim çatışmazlığı, fənn laboratoriyalarının olmaması çətinliklərimizi daha da artırırdı. Bundan əlavə, kənddə inzibati binalar olmadığı üçün cəmi 7 sinifdən ibarət binanın bir hissəsini də tibb məntəqəsinə vermişdik. 2020-ci ildə kənd məktəbinin binasının yenidən qurularaq 3 mərtəbəli müasir formaya salınması, 9 yeni gənc müəllimin təhsil ocağına cəlb olunması sevincimizi daha da artırır. Məktəb 5 oktyabr – Müəllimlər Günündə istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov məktəbin açılış mərasimində müəllimlərlə görüşündə demişdir: ***"Beynəlxalq Müəllimlər Günündə Nəcəfəlidizə kənd tam orta məktəbi üçün yeni bina istifadəyə verilir. Müasir şərait yüksək əhval-ruhiyyə və tədrisin günün tələbləri səviyyəsində qurulması deməkdir. Məktəbdə bütün fənlər üzrə müəllimlər fəaliyyət göstərir. Bu da imkan verir ki, nailiyyətlər artsın. Son beş ilin göstəriciləri onu deməyə əsas verir ki, məktəbdə tədris yüksək səviyyədə qurulub. Hazırda məktəbdə təhsil alan şagirdlərin 75 faizdən çoxu əlaçıdır. Qazanılan bu nailiyyətlər ölkəmizin gələcəyinə xidmət edir. Müəllimlər bilməlidirlər ki, onlar ölkənin gələcəyini hazırlayanlardır. Ölkənin gələcəyi isə təhsilli və vətənpərvər gənclərdən ibarət olmalıdır. Çünki belə gənclər ölkənin milli sərvətidir. Məktəbdə təhsil alan gənclər həm də qabiliyyətinə və marağına uyğun peşəyə yönəldilməlidir. Yaradılan şərait bu vəzifələrin icrasına imkan verəcəkdir".***

Kollektivimiz ilk günlərdən öz işini Ali Məclis Sədrinin tövsiyə və tapşırıqları üzərində qurub.

Bir vaxtlar kəndin şəraitsizliyi ucbatından buradan getmiş, artıq bir neçə ildir ki, ata ocağına qayıdan sakinlərdən biri Pərvanə Hənifəyevadır. Pərvanə xanım deyir ki, o, kəndi tərk edərkən əhalinin əsas məşğuliyyəti olan əkinçilik üçün heç bir şərait yox idi: – Mən kəndimizə qayıdanda artıq o günlərdən əsər-əlamət qalmamışdı. İnsanların nəinki su problemi həll edilib, evlərimizə mavi yanacaq xətləri çəkilib. O vaxtlar biz xəstələnən insanı rayon mərkəzinə müxtəlif əziyyətlərlə çatdırırdıqsa, bu gün istifadəmizə verilən kənd mərkəzinin binasındakı həkim ambulatoriyası bu çətinliyimizi aradan qaldırıb. Bundan başqa, kəndimizdə rabitə xidməti də yüksək səviyyədə qurulub ki, kommunal ödənişlərimizi burada ödəyirik. Sürətli internet xətti istifadəmizə verilib. Kənd adamına daha nə lazımdır?

Pərvanə xanımın bu sözlərindən sonra tibb məntəqəsinə üz tuturuq. Tibb məntəqəsinin müdiri Dilbər Cabbarova ilə həmsöhbət oluruq. O deyir ki, bir zamanlar vətəndaşlara sadə tibbi yardım göstərmək üçün belə şəraitimiz olmadığından istər əhali, istərsə də biz tibb işçiləri əziyyət çəkirdik. Kəndimizdə səhiyyə xidməti çox aşağı səviyyədə idi. Uşaqlarımız üçün onsuz da balaca olan kənd tam orta məktəbində tibb məntəqəsi üçün bir sinif otağı ayrılmışdı. Lakin orada da heç bir şərait, tibbi avadanlıq yox idi. Bu da göstərə biləcəyimiz tibbi yardımın səviyyəsini tamamilə aşağı salırdı. Nasazlığı olan adamı çox çətinliklə rayon mərkəzinə çatdırmaq lazım gəlirdi ki, bu da ilkin tibbi yardımın göstərilə bilməməsi ucbatından çox vaxt mənfi nəticələr verirdi. İndi isə yaradılan şərait bizə hansısa problemi olan sakinə ilkin tibbi yardım göstərməyə imkan verir. Yenidənqurma tədbirləri aparılan kəndimizdə kənd və xidmət mərkəzləri, məktəb binası ilə yanaşı, səhiyyə xidməti üçün də yüksək şərait yaradılıb. Kənd mərkəzinin daxilində yerləşən məntəqəmiz müasir tibbi avadanlıqlarla təchiz olunub. Artıq burada əhalinin sağlamlığının qeydinə qalmaq mümkündür.







Qarşılaşdığımız hər bir sakin böyük ruh yüksəkliyi və xoş təəssürat içərisindədir. Öyrənirik ki, həm də Birinci Qarabağ müharibəsinin veteranı, ehtiyatda olan polkovnik-leytenant Oruc Həsənov da burada yaşayır. Öz evində bizi səmimiyyətlə qarşılayan Oruc əminin yaşı altmışı haqlayıb. Onu əvvəlcə Qələbə münasibətilə təbrik edirik. Sevincinin həddi-hüdudu olmayan təqaüdçümüz deyir ki, sentyabr ayının 27-si – ordumuz düşmənin təxribatlarına cavab verməyə başlayan bir gündən özünə rahatlıq tapa bilmirdi. Sağlamlıq imkanlarının məhdudluğuna baxmayaraq, dəfələrlə müraciət edib cəbhə xəttinə getmək üçün təkid etsə də, onu ön xəttə göndərməyiblər. Hər dəqiqə ürəyi hərbçilərimizlə döyünən Oruc Həsənov noyabr ayının 10-da Qələbə müjdəsini bölüşmək üçün hazırda hərbi qulluqda olan dostları ilə əlaqə saxlayıb, onları təbrik edib. Kəndlərinin bugünkü gözəlliyindən də danışan Oruc müəllim bildirir ki, Nəcəfəlidizənin keçmişi ilə bu günü müqayisə edilməyəcək dərəcədə fərqlənir. Müsahibim o dövrün çətinliklərindən də danışır. Deyir ki, bu gün yaradılan şərait hər bir kənd adamına göstərilən diqqətin bariz nümunəsidir. Bunu kənd sakinləri ilə görüşən Ali Məclisin Sədri də vurğulayıb: ***"Rahat yaşayış şəraiti məskunlaşmanın artmasında əsas amildir. Bu gün dövlətimizin vətəndaşlarına diqqət və qayğısı nəticəsində Nəcəfəlidizə kəndində insanların rahat yaşayışı təmin olunub. Kənddə aşağı faizlə kreditlər verilir, ailə təsərrüfatlarına köməkliklər göstərilir, özünüməşğulluq təmin olunur, hər bir sakinə dövlət qayğısı göstərilir. Ona görə də kəndin inkişafı bundan sonra da sakinlər tərəfindən davam etdirilməli, təsərrüfatlar genişləndirilməlidir".***

Kənd adamları ilə söhbətlərimiz də belə deməyə əsas verir ki, onlar Ali Məclis Sədrinin bu fikirlərini özlərinin fəaliyyət proqramına çeviriblər.

*Bəli, əziz oxucularımız, daha bir yurd yerimizin gözəllik mənzərəsini sizin gözləriniz önündə canlandırmağa, sizi də tanış etməyə çalışdıq. Azərbaycan Ordusunun mənfur düşmənlərimizdən azad etdiyi torpaqlarımızın abadlaşdırılması ilə bağlı yazılarımızla görüşünüzə gəlmək ümidi ilə.*

**Telli MƏMMƏDOVA**

*"Ailə təsərrüfatlarımız"*

# Hərtərəfli qayğı əhatəsində

*Son illərdə muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən diqqət davamlı xarakter alıb. Belə ki, bu sahənin dövlət tərəfindən dəstəklənməsi, yeni emal və istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud obyektlərin isə fəaliyyətlərinin bərpa olunması və mütərəqqi təsərrüfat formalarının tətbiqi yeni iş yerlərinin yaradılmasına və bunun məntiqi nəticəsi kimi insanların məşğulluğuna müsbət təsirin göstərib.*

Belə tədbirlər sırasında ailə təsərrüfatlarının yaradılması xüsusi qeyd olunmalıdır. O da vurğulanmalıdır ki, həmin təsərrüfatlara qayğı da unudulmayıb. Təsərrüfatların fəaliyyətində yaranan çətinliklərin aradan qaldırılması, onlara metodik köməkliklərin göstərilməsi, maliyyə dəstəyinin təmin edilməsi, ailə təsərrüfatlarının məhsullarının təbliği və satışı üçün məqsədyönlü tədbirlərin keçirilməsi diqqətdə saxlanılıb. Bunun ifadəsidir ki, 2017-ci il noyabr ayının 18-də ilk dəfə olaraq Naxçıvan şəhərindəki Naxçıvanqalada "Ailə təsərrüfatları məhsulları" festivalı keçirilib.

2019-cu ilin muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunması belə təsərrüfatlara böyük önəm verilməsinin ifadəsi kimi dəyərləndirilir. Məlumat üçün onu da bildirək ki, bu gün muxtar respublikada müxtəlif profilli mindən artıq ailə təsərrüfatı mövcuddur.

Bu günlərdə Şərur rayonuna getməkdə məqsədimiz bu bölgədə yaradılmış ailə təsərrüfatlarının fəaliyyəti ilə maraqlanmaq idi. Qeyd edək ki, bu gün rayonda 100-dən artıq ailə təsərrüfatı var. Onlardan biri də 2018-ci ildə keçirilən "Ailə təsərrüfatları məhsulları" festivalında I yerin sahibi olmuş rayonun Çərçiboğan kənd sakini Muqbil Zamanovdur.

Onunla söhbət zamanı bildirdi ki, 2010-cu ildən bu işlə məşğuldur. 25 növdə araq, 2 adda çaxır istehsal edir. Bunun üçün müxtəlif ədəbiyyatlar oxuyur. Söhbətindən də hiss etdik ki, Muqbil bu sahədə mükəmməl biliyə malikdir. Öyrəndik ki, araq istehsalı üçün ayırdığı sahə kiçik olduğundan ona hərtərəfli şəraiti olan sex tikilməsi məqsədilə 1500 kvadratmetr torpaq sahəsi verilib. Torpaq sahəsində 5000 ədəd qızılgül, bir qədər də qara qarağat və moruq əkib. Tikdirəcəyi istehsal sahəsinin layihəsi hazırlanıb. Burada xammalın istehsal üçün hazırlanması, qıcqırdılması, çəkilməsi, süzülməsi üçün otaqlar, anbar olacaq. İstehsal sahəsinə əlavə işçilər qəbul ediləcək ki, bu da əhalinin məşğulluğuna töhfəsini verəcək.

Onu da öyrəndik ki, ailə təsərrüfatında çox böyük müalicə əhəmiyyəti olan sarımsaqla limonun və bananın ekstraktı hazırlanır. Muqbil deyir ki, ailə təsərrüfatına belə qayğı gələcəkdə həmin təsərrüfatın böyüyəcəyinə və daha çox insanın daimi işlə təmin ediləcəyinə onda böyük inam yaradıb. Satış üçün heç bir çətinliyi olmayan Muqbil diqqətimizə çatdırdı ki, muxtar respublikamızda bitən hər bir meyvənin, giləmeyvənin və digər məhsulların araqlarını çəkmək mümkündür. Onların hər birindən müalicə məqsədilə istifadə çox xeyirlidir. Ancaq həmin araqların hazırlanma və çəkilmə üsulları var. Bunlara mütləq əməl olunmalıdır ki, bol məhsul əldə edilsin və istehsal olunan məhsul insan orqanizminə mənfi təsir göstərməsin.

Həmsöhbətim ailə təsərrüfatlarında yetişdirilən məhsulların satışında festival və yarmarkaların böyük əhəmiyyəti olduğunu diqqətə çatdırdı və minnətdarlığını bildirdi.

**Muxtar MƏMMƏDOV**

Yeni nəşrlər

# Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafına həsr olunmuş monoqrafiya Naxçıvanşünaslığa dəyərli töhfədir




***Naxçıvan Muxtar Respublikası son 25 ilə yaxın bir müddət ərzində çox böyük inkişaf yolu keçmişdir. Həyata keçirilən məqsədyönlü və düşünülmüş siyasət, ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı inkişaf strategiyasının uğurlu tətbiqi nəticəsində muxtar respublika aqrar regiondan Azərbaycanın inkişaf etmiş sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Bu inkişaf özünü elm sahəsində də qabarıq şəkildə büruzə vermişdir. Ümummilli lider Heydər Əliyevin 7 avqust 2002-ci ildə imzaladığı Sərəncamla yaradılan Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi muxtar respublikada elmi-tədqiqat işlərinin sistemli şəkildə aparılmasında, elmin yüksələn xətt üzrə inkişaf etdirilməsində mühüm rol oynadı. Bundan sonra Naxçıvanda elmin müxtəlif istiqamətləri üzrə tədqiqatlar aparılmağa başlandı, uğurlu nəticələr əldə olundu, çoxlu kitab, monoqrafiya, ümumiləşdirici əsərlər nəşr olunaraq elmi dövriyyəyə daxil edildi. Bu iş bu gün də uğurla davam etdirilməkdədir.***

Bu yaxınlarda Naxçıvanşünaslıq elmi xəzinəsi AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə nəşr olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" adlı monoqrafiyası ilə zənginləşmişdir. Muxtar respublikanın 95 illiyinə həsr edilmiş və bu yubileyə layiqli töhfə olan monoqrafiya Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixdə imzaladığı Sərəncamla təsdiq edilən "Tədbirlər Planı"nın tələblərinə uyğun olaraq hazırlanmışdır. Monoqrafiyanın elmi redaktoru AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli, rəyçiləri iqtisad üzrə elmlər doktoru, professor Nazim Əhmədov, tarix üzrə elmlər doktoru Fəxrəddin Cəfərov və tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovdur.

İlk səhifələrinə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş "Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı və həmin Sərəncamla təsdiq edilən Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş "Tədbirlər Planı"nın daxil edildiyi monoqrafiya – giriş, 3 fəsil, 19 paraqraf, nəticə və əsərin yazılmasında istifadə olunan ədəbiyyatların siyahısından ibarətdir.

Müəllifin fikrincə, 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında 1991-1993-cü illər "itirilmiş illər" kimi xarakterizə olunsa da, bu fikri Naxçıvan Muxtar Respublikasına aid etmək olmaz. Çünki həmin vaxt ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşaması, Ali Məclisin Sədri kimi muxtar respublikaya rəhbərlik etməsi bölgəni böyük bəlalardan, xüsusilə erməni təcavüzündən xilas etdi. Məhz həmin vaxtlar Azərbaycanın dövlət müstəqilliyinin əsasları Naxçıvanda qoyuldu, hətta Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi ilk dəfə Naxçıvanda qaldırıldı, sovet qoşunları ərazidən çıxarıldı, özəlləşdirmə sahəsində addımlar atıldı. Beləliklə, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafının əsasları qoyuldu. Muxtar respublikada sonralar həyatın bütün sahələri üzrə əldə olunan möhtəşəm uğurlar məhz bu zəmin üzərində inkişaf etdirildi.

Akademik İsmayıl Hacıyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" adlı monoqrafiyasında da məhz bu inkişaf və tərəqqi illəri, 1995-ci ilin dekabrında cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən 2019-cu il də daxil olmaqla, son 25 il ərzində muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafının ən mühüm istiqamətləri tədqiq edilmiş, dinamik və davamlı inkişaf, bölgədə baş verən dəyişikliklər, əldə olunan nailiyyətlər faktiki materiallar əsasında öyrənilmişdir.

Monoqrafiyanın I fəslində öncə muxtar respublikanın inkişafına nəzər salınmış, onun ümumi səciyyəsi ortaya qoyulmuş, yeni sənaye sahələrinin yaradılması, bütövlükdə, sənayenin inkişafı haqqında yığcam məlumat verilmişdir. Həmçinin fəsildə muxtar respublikada kənd təsərrüfatının inkişafı, aparılan tikinti-quruculuq və abadlıq işləri, nəqliyyat, rabitə sahəsində baş verən dəyişikliklər, elektroenergetikanın yenidən qurulması və inkişaf etdirilməsi, ekologiya və yaşıllaşdırma sahəsində həyata keçirilən tədbirlər haqqında bəhs olunmuşdur.

Birinci fəsli yekunlaşdıraraq akademik İsmayıl Hacıyev belə bir qənaət əldə etmişdir ki, muxtar respublikada həyata keçirilən uğurlu və məqsədyönlü siyasət nəticəsində tarixən aqrar region kimi formalaşan Naxçıvan Muxtar Respublikasının aqrar-sənaye regionuna çevrilməsi üçün ciddi əsaslar yaradılmış, kənd təsərrüfatı yüksək inkişaf səviyyəsinə qalxmış, tikinti-quruculuq və abadlıq işləri böyük vüsət almış, Naxçıvanın blokada vəziyyətində olmasını nəqliyyat sektoru, informasiya-kommunikasiya texnologiyalarının inkişafı aradan qaldırılmış, muxtar respublikanın sürətli inkişafı təmin edilmişdir. Həmçinin muxtar respublikada enerji təhlükəsizliyi yaradılmış, təbii qazla təminat başa çatdırılmış, əlverişli ekoloji mühitin yaradılması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Əsərin II fəsli Naxçıvan Muxtar Respublikasının sosial inkişafına həsr olunmuşdur. Akademik İsmayıl Hacıyev bu fəsildə sosial inkişafın ümumi səciyyəsini vermiş, sosial sahədə baş verən dəyişikliklər, istehlak bazarı, əhalinin gəlirləri, ödənişli xidmətlər, demoqrafik proseslər, məşğulluq problemlərinin həlli, səhiyyə sisteminin inkişafı və əhalinin sağlamlığının qorunması məsələlərini şərh etmişdir. Beləliklə, fəsildən aydın olur ki, Azərbaycan Respublikasının sosial siyasəti muxtar respublikada uğurla aparılmış, Ali Məclis Sədrinin rəhbərliyi ilə həyata keçirilən tədbirlər əhalinin sosial problemlərinin həll edilməsinə kömək etmiş, sosial müdafiə sahəsində islahatlar nəticəsində əhalinin rahat və firavan yaşaması üçün şərait yaradılmış, onların rifah halı yaxşılaşdırılmışdır. Səhiyyə sisteminin maddi-texniki bazası möhkəmləndirilmiş, bu sahədə aparılan islahatlar əhalinin sağlamlığının qorunmasına şərait yaratmışdır. "Caspian European Club"un 2018-ci və 2019-cu illərdə ölkəmizin iqtisadi regionları üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ikinci dəfə ən yüksək bal toplayaraq lider olmuşdur.

Monoqrafiyanın sonuncu – III fəslində muxtar respublikada mədəniyyətin inkişafından bəhs edilmişdir. Bu fəsildə müəllif muxtar respublikada mədəniyyətin ayrı-ayrı sahələrinin, o cümlədən elm, təhsil, mədəni-maarif müəssisələri, ədəbiyyat, mətbuat, incəsənət və turizmin inkişafından söhbət açmışdır. Müəllifin qənaətinə görə, muxtar respublikada aparılan uğurlu siyasət nəticəsində təhsil və mədəniyyət yüksək səviyyədə inkişaf etmiş, ölkə Prezidenti cənab İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ziyalılara, elm adamlarına göstərdiyi diqqət və qayğı muxtar respublikada yeni mərhələdə elmin, milli ziyalılığın inkişafına öz müsbət təsirini göstərmişdir. Həmçinin yüksək dövlət qayğısı nəticəsində muxtar respublikada mədəni-maarif müəssisələri, ədəbi mühit inkişaf etmiş, görkəmli şair və yazıçılar, tənqidçilər formalaşmışdır. Mətbuat və incəsənət sahəsində də böyük uğurlar əldə olunmuşdur. Qazanılan nailiyyətlər, həmçinin bölgənin zəngin tarixi və mədəni irsi, nadir təbiət və memarlıq abidələri, müasir infrastrukturların yaradılması bu sahədə həyata keçirilən tədbirlər və digər amillər turizmin inkişafı üçün əlverişli imkanlar yaratmışdır.

Sənaye, kənd təsərrüfatı, nəqliyyat, sosial və mədəniyyət sahələrində əldə olunan nailiyyətlərin faktiki və dəqiq materiallar əsasında təqdim edildiyi monoqrafiyanın sonunda müəllif belə bir nəticəyə gəlmişdir ki, son 25 ilə yaxın bir dövrdə Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişafa nail olmuş, həyatın bütün sahələrində – iqtisadi inkişafda, sosial həyatda, mədəni quruculuqda çox böyük dəyişikliklər baş vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ümummilli lider Heydər Əliyev siyasi kursuna və siyasətinə sədaqəti, bu siyasətin Naxçıvanda uğurlu tətbiqi sahəsində məqsədyönlü fəaliyyəti, qətiyyətli mövqeyi, əzmkarlığı, mükəmməl idarəetmə bacarığı və yenilikçiliyi sayəsində inkişafın "Naxçıvan modeli" formalaşmış, inkişafdan intibaha doğru sürətli yol təmin edilmişdir. Nəticədə, muxtar respublika bu illər ərzində ölkəmizin ən qabaqcıl və inkişaf etmiş bölgələrindən birinə çevrilmiş, 1995-2019-cu illərdə yüzillik inkişafa bərabər bir yol keçmişdir.

Naxçıvan Muxtar Respublikasının tarixinə aid çox dəyərli monoqrafiya, kitab və məqalələrin müəllifi olan akademik İsmayıl Hacıyevin yaradıcılığında muxtar respublikanın müstəqillik dövrü tarixinin öyrənilməsi xüsusi mərhələ təşkil edir. Bu sahədə çox məhsuldar yaradıcılıqla məşğul olan alimin zəngin materiallar əsasında gərgin əməyi hesabına hazırlanaraq elmi dövriyyəyə daxil edilmiş yeni monoqrafiyası, fikrimizcə, akademik İsmayıl Hacıyevin böyük uğurudur. İnanırıq ki, Naxçıvanşünaslıq elmi xəzinəsinə çox sanballı bir töhfə olan və Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrü tarixinə işıq salan bu əsər muxtar respublikanın ictimai və mədəni həyatı ilə əlaqədar nəşr olunmuş əsərlər sırasında öz layiqli yerini tutacaq, tədqiqatçılar, bütövlükdə, Naxçıvanın müstəqillik dövrü tarix və mədəniyyəti ilə maraqlananlar üçün qiymətli bir vəsaitə çevriləcəkdir. Dəyərli monoqrafiya münasibətilə müəllifi təbrik edir və ona yeni yaradıcılıq uğurları arzulayırıq.

**Hacıfəxrəddin SƏFƏRLİ**
***AMEA-nın müxbir üzvü***

---

*Tükənməz sənət imkanlarını göstərən xalçaçılıq həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə ehtiva edən qiymətli el sənətidir. Prezident cənab İlham Əliyevin dediyi kimi:* ***"Xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir".***

Dövlət proqramı icra olunur

# Maddi və mədəni irsimiz olan xalçaçılıq sənəti inkişaf etdirilir



Naxçıvan Muxtar Respublikasında xalçaçılıq qədim tarixə malik olan sənətkarlıq sahələrindən biri hesab olunur. Bu tarixə nəzər yetirdikdə aydın olur ki, uzun illər insanlar tərəfindən müxtəlif məqsədlərlə məişət əşyası kimi istifadə olunan xalçalar sonradan milli sənət nümunələrindən birinə çevrilmişdir. Naxçıvan xalçalarının ənənəvi naxışları, elementləri və rəng çalarları dünya şöhrəti qazanmış, bu qədim diyarda özünəməxsus xalçaçılıq məktəbi formalaşmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın əsas məqsədi xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və davamlı inkişafıdır. Proqramın giriş hissəsində deyilir: *"Xalça sənəti tarixən Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında aparıcı sahələrdən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir".*

Proqramın icrasına uyğun olaraq üçüncü rübdə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Xalq Yaradıcılığı Emalatxanasında 10, Cəlilkənd buxzanasında 4 xalça toxunmuş, 4 xalçanın satışı həyata keçirilmişdir. Əvvəlki illərdə yaradılmış əllə toxunmuş xalçaların reyestri sisteminə 2020-ci ilin iyul-sentyabr aylarında 50 xalça haqqında məlumat daxil edilmişdir.

Xalça sənətinin yaşadılması bu sahədə mövcud olan ənənələrin davam etdirilməsindən asılıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Xalça toxumaq sənəti tarixən Azərbaycanda, o cümlədən Naxçıvanda aparıcı peşə sahələrindən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir. Bu ərazidə istehsal olunan iriölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiq edir. Orta əsr müəllifləri Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar vermişlər".***

Naxçıvanda xalçaçılıq sahəsində peşə təhsilinin təşkili istiqamətində ardıcıl tədbirlər görülür. Üçüncü rübdə 7 müdavimin Xalq Yaradıcılığı Emalatxanasında, 17 müdavimin isə Dövlət Məşğulluq Agentliyi tərəfindən təşkil olunmuş xalçaçı kurslarını bitirərək sertifikatlarla təmin olunması bu sahəyə göstərilən diqqətin mühüm göstəricisidir. Onu da qeyd etmək lazımdır ki, emalatxananın xalçaçısı tərəfindən Heydər Əliyev Uşaq-Gənclər və Yaradıcılıq Mərkəzində xalçaçılıq sənətinin öyrədilməsi üzrə təşkil olunmuş kurslarda müdavimlərə dərslər keçilir.

Dövlət proqramında xalça sənətinin inkişafı məqsədilə rəqabət qabiliyyətinin artırılması və daxili bazarın qorunmasına yönəlmiş tədbirlər nəzərdə tutulmuşdur. Bu baxımdan iplik istehsalının yaradılmasının dəstəklənməsi mütərəqqi əhəmiyyətə malikdir. Xalçaçılığın xammal bazasının formalaşdırılması bu sahədə davamlı inkişafı təmin edən mühüm faktordur. Üçüncü rübdə Dövlət proqramının icrasına uyğun olaraq iplik istehsalı sahəsinin yaradılması məqsədilə araşdırma aparılmış, Çin Xalq Respublikasında bu istiqamətdə avadanlıqların istehsalı ilə məşğul olan müvafiq şirkətlə əlaqə saxlanılmışdır. Həmin şirkətdən əldə



edilən ətraflı məlumatlar və qiymətlər əsasında layihə hazırlanmışdır.

Xalçalar muxtar respublikanın zəngin mədəniyyətini nümayiş etdirən əvəzsiz vasitələrdəndir. Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən araşdırılması bu sahədə unudulmaqda olan ənənələrin bərpası üçün yeni imkanlar yaradır. Aparılan tədqiqatların nəticələri milli mədəniyyətimizin təbliğində mühüm rol oynayır. Bu istiqamətdə üçüncü rübdə Türkiyə Respublikasında keçirilən IV Beynəlxalq Elmi Araşdırmalar Konqresində "Naxçıvan və Anadolu xalça və kilim motivləri" mövzusunda çıxış edilmiş, xalçaçılıqla bağlı 3 məqalə dərc olunmuşdur. Həmçinin bu dövrdə internet saytlarında xalça sənəti ilə bağlı 2 məqalə yerləşdirilmişdir.

Muxtar respublikamızın turizm potensialının nümayiş etdirilməsində də xalq sənəti nümunələrinin təbliği vacib rol oynayır. Dövlət proqramının icrası istiqamətində üçüncü rübdə muxtar respublikada fəaliyyət göstərən turoperatorlara Naxçıvan-Sədərək marşrutu üzrə təşkil edilən turlara Cəlilkənd buxzanasında və Sədərək rayonunda fəaliyyət göstərən xalçaçılıq emalatxanalarının daxil edilməsi tövsiyə olunmuş və bu məqsədlə metodik köməklik göstərilmişdir. Eyni zamanda Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, eləcə də sosial şəbəkələrdə xalçaçılıq irsinin təbliği məqsədilə 33 məlumat paylaşılmışdır.

Dövlət proqramının icrası qədim el sənətinin hərtərəfli araşdırılması və təbliği üçün geniş imkanlar açmaqla Naxçıvan xalçaçılıq məktəbinin inkişafında yeni mərhələnin əsasını qoyacaqdır. Eyni zamanda xalçaçılığın yaşadılmasına, milli mədəniyyətimizin təbliğinə və bu sahənin muxtar respublikanın sosial-iqtisadi inkişafının mühüm hərəkətverici qüvvələrindən birinə çevrilməsinə şərait yaradacaqdır.

**"Şərq qapısı"**

# Qafqazın təbiət muzeyi – KƏLBƏCƏR



***Qarabağın qala qapısı, Azərbaycanın cənnətməkanı, Qafqazın təbiət muzeyi Kəlbəcər ərazisini başdan-başa gülüstan adlandırmaq olar. Sağından-soluna gedən ucsuz-bucaqsız sıldırımlı qayalarını, otuz mindən artıq təbii mineral bulaqlarını, ilin bütün fəsillərində yaşıl örtüyü ilə qəlbləri fəth edən mənzərəsini görən hər kəs haqlı olaraq Kəlbəcəri "təbiət muzeyi" adlandırır.***

Füsunkar təbiətin əhatəsində qol-boyun olan sərhədsiz gözəllikləri, flora, faunası təbiətin ecazkar möcüzəsidir. Saysız-hesabsız xəzinəyə malik təbiət muzeyinin yeri bir başqa, səması da tamam başqa gözəlliklər olan Kəlbəcərdə deyirlər ki, 4 mindən artıq bitki növü bitir. Bunlardan da 200-ü dərman bitkisidir. Məhz bu özəllikləri, gözəllikləri ilə zəngin meşələr diyarı olan Kəlbəcəri "Yaşıl ada"ya da bənzətmək olar... Min illərin yamacları, düzləri, güllər-çiçəklər diyarı. Həmçinin sinəsində qaynayan yüzlərlə mineral bulaqlar da buranın təbiət muzeyinə bir töhfədir. Kəlbəcər adı səslənəndə yadımıza ilk olaraq nə düşür? Təbii ki, dillər əzbəri İstisuyu. Kəlbəcər ta qədimdən İstisuyu ilə məşhurdur. Min bir dərdin dərmanı olan İstisu akademik Mirəli Qaşqayın dili ilə desək: "...Kəlbəcər rayonundakı İstisu mineral su bulağı təbiətin gözəl hədiyyəsidir. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə bu sular dünyada məşhur olan Karlovı-Varı bulaqları ilə eynidir və bəzi xüsusiyyətlərinə görə dünyada yeganədir". İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə, xüsusilə fərqlənir. Bu su ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. Zamanında İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi.

Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Mozçay, Bağırsaq, Qotursu kimi çox böyük müalicə – balneoloji təsirə malik mineral su yataqlarını öyünərək bulaqlar siyahısına əlavə edə bilərik.

Ümumiyyətlə, təhlil etsək, görərik ki, Kəlbəcər adının özündə də sirli-sehrli şifrələr elə "təbiəti" işarə edir. Kəlbəcərin təsviri özünün adı ilə şifrələnib. Necə? Mən deyim, bilməyənlərə də agah olsun. Deməli, "Kəlbəcər" toponiminin çox maraqlı mənası var. Mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Çay və qala ikisi də təbiətin atributudur. Təbiəti nə çaysız, nə də ki qalasız təsəvvür etmək mümkün deyil. Qeyd edilir ki, Kevli "çayın üstü", çer/car "qala" mənasını verir. Qala deyilməsinin əsas səbəbi isə dörd bir tərəfdən qalalarla əhatə olunmasıdır. Kəlbəcərin portretləşən mənzərəsi, tarixdən danışan qalaları, mədəniyyət nümunələri və təbiət möcüzələri özünün sehrli aləmini Kəlbəcər adı ilə şifrələyib. Hələ sizə sinəsindən qarı-qırovu, zirvəsindən tufanı, çəni heç zaman əskik olmayan Murovun şıltaqlığı, hər il yamacları qonaq-qaralı olan Dəlidağın saysız-hesabsız gül-çiçəyindən də söz açım. Bu gözəlliklər isə Kəlbəcərin təbiət muzeyinə yeni estetik eksponatlar bəxş edib. Məhz bu səbəbdən də Qafqaz geologiyasının atası hesab edilən V.Avix Kəlbəcər haqqında demişdir: "Kim Tərtərçay dərəsi boyunca seyr etməmişdirsə, İsveçrənin gözəlliyinə yalnız o məftun ola bilər".

Hələ Kəlbəcərin mağaralarından deyim sizə. Bir deyil, iki deyil, üç deyil. Bildiyimiz kimi, qədimliyin ən bariz nümunəsidir mağaralar. O dövrü məhz duyub hiss etmək üçün əl-əl axtardığımız tarixi abidələrimizdir elə. Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtərçay boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar, qədim dövrlərin ayaq izləri tarixin bir çox məqamlarından, maraqlı tarixi həqiqətlərimizdən geniş söhbət açır, özündən danışır. Qayaüstü rəsmlər isə tariximizin, milli soykökümüzün genofondundan danışır bizə. "Soltan Heydər", "Qurbağalı çay", "Turşsu", "Ayçınqıllı", "Gəlinqayası", "Böyükdəvəgözü", "Sərçəli" və sair yerlərdəki qayaüstü təsvirlər təkcə Kəlbəcərin yox, bütövlükdə, Azərbaycan torpağının qədim insan məskəni olduğunu sübut edir. Daşlara həkk edilmiş yallıyabənzər oyunlardan, göy cisimlərindən ibarət bu daş kitabələr Kəlbəcərin tarixinin, mədəniyyətinin qədimliyini əks etdirir.

Tarixi gözəlliklərdən bəhs etdiyimiz təbiət muzeyimizin qara taleyini də xatırlayaq. 2 aprel 1993-cü il. Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunur. İşğal zamanı rayonun 54 mindən artıq əhalisi məcburi köçkün həyatı yaşamağa məhkum olur, 321 nəfər əsir düşür və ya girov götürülür, 511 nəfər vəhşicəsinə qətlə yetirilir. Maddi ziyanlar da baş alıb gedir. 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min iribuynuzlu heyvan, 500 min qoyun-quzu, yüzlərlə maşın, texnika və sair talan edilir və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınır, 58 min əhalisi olan Kəlbəcərin dinc əhalisinə divan tutulur.

İşğaldan sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edir. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Təəssüf ki, verilən tələblər yerinə yetirilmir, ta ki Ermənistanın yeni təxribatına cavab verməklə başlanan İkinci Qarabağ müharibəsində rəşadətli ordumuzun tarixi birlik mübarizəsinə kimi. 44 günlük müharibənin gedişində Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Şuşa işğalçılardan təmizləndikdən sonra noyabrın 10-u ölkələrarası Bəyannamə qəbul edildi. Bəyannamənin şərtlərində ermənilər noyabrın 15-i Kəlbəcərdən tamamilə çıxarılmalı idilər. Lakin onlar vaxt istədilər. Ölkəmizin Prezidenti humanistlik göstərərək vaxtı 10 gün də uzadaraq rayonun tamamilə boşaldılmasını 25 noyabr tarixinədək onlara güzəştə getdi. Onlar bu tarixdə Kəlbəcər rayonunu tərk etməlidirlər.

Bu gün ekoloji müharibənin də qurbanı olan Kəlbəcər son dəfə erməni vəhşiliklərinə şahidlik etdi. Yandırılaraq, təbiət muzeyimizə od vuraraq işgəncə edildi. Təbii ki, bu da onlara yaraşacaq rəftardır. Ermənilərdən mədənilik gözləmək qəbahət olardı. Onlara yaraşacaq şəkildə getmək başqa nə cür ola bilərdi ki?..

Lakin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasəti, qətiyyətli siyasi iradəsi nəticəsində imzalanan üçtərəfli Bəyannamənin şərtlərinə əsasən Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olmuş torpaqlarını bir güllə atılmadan, heç bir canlı qüvvə itkisi vermədən azad etdiyimiz kimi, doğma Kəlbəcərimizi də işğalçılardan azad edəcək, onun bütün füsunkar gözəlliklərinə, təbii sərvətlərinə yenidən sahiblənəcəyik. Digər həmvətənlərimiz kimi, kəlbəcərlilərin də yurd nisgilinə, torpaq həsrətinə son qoyulacaq. Buna müasir dövrümüzün böyük siyasi lideri cənab İlham Əliyevin rəhbərliyi, dövlət-xalq-ordu birliyimizlə nail olacağıq.

**Türkan HÜSEYNLİ**

# *"Gənclərin vətənpərvərlik tərbiyəsində sosial könüllülərin rolu"* mövzusunda tədbir keçirilib



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində "Gənclərin vətənpərvərlik tərbiyəsində sosial könüllülərin rolu" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı bu istiqamətdə xeyli iş görməyə stimul olub. Hər il çətin dağlıq şəraitdə xidmət edən əsgərlərə fiziki imkanları məhdud şəxslər tərəfindən isti qış geyimlərinin hazırlanması təşkil edilir, sosial könüllülərin iştirakı ilə hərbi-vətənpərvərlik mövzusunda müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər çərçivəsində sosial könüllü tərəfindən verilmiş təklif əsasında hazırlanan və Birinci Qarabağ müharibəsinin iştirakçılarının keçdikləri döyüş yolundan bəhs edən "Canlı tarixlər" adlı videoçarx da gənclərə vətənpərvərlik hisslərinin aşılanması, bu istiqamətdə ictimai fəallığın artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev qeyd edib ki, dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə, eləcə də muxtar respublikamızda gənc nəslin vətənpərvər ruhda tərbiyəsi diqqət mərkəzindədir. Bu məqsədlə keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına yönəldilir.

Çıxış edənlərdən Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov və "Kanal 35" televiziyasının baş redaktoru Ramal Məmişov müharibə veteranlarının keçdikləri şanlı döyüş yolunun təbliğinin gənc nəslin gələcək inkişafında, onlarda hərbi-vətənpərvərlik ruhunun gücləndirilməsindəki əhəmiyyətindən danışıblar.

"Canlı tarixlər" videoçarxının ideya müəllifi Aytac Əliyevanın çıxışından sonra sözügedən videoçarx nümayiş etdirilib və müəllif mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Gənc rəssamların hesabat sərgisi və vəsiqələrin təqdimatı olub



*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda birliyin nəzdində yeni yaradılan Gənc rəssamlar bölməsi üzvlərinin hesabat sərgisi və onlara üzvlük vəsiqələrinin təqdimatı keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin nəzdində ilk dəfə olaraq yaradılan Gənc rəssamlar bölməsi muxtar respublikada rəssamlıqla məşğul olan gənclərin yoluna işıq olacaq. Buraya üzv olan və yaxud üzv olmaq istəyən gənclər professional rəssamlarımızla bir yerdə işləyə, fikir mübadilələri apara, yeni layihələr irəli sürə biləcəklər. Gələcəkdə onların sərgilərinin keçirilməsi də nəzərdə tutulur.

Vurğulanıb ki, hesabat sərgisi keçirilən, eləcə də üzvlüyə qəbul edəcəyimiz gənclər içərisində muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, eləcə də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsil alan həvəskar rəssamlar iştirak edir. Onların içərisində təsviri incəsənət və rəngkarlıq ixtisasında, həmçinin qeyri-ixtisas fənləri üzrə təhsil alan gənclər də vardır. Biz həm də imkan yaradırıq ki, qeyri-ixtisaslar üzrə təhsil alan, lakin rəssamlığa böyük maraqgöstərən gənclərimizin də bu vasitə ilə potensialları üzə çıxarılsın.

Tədbirdə Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Məhəmmədəli Ələkbərov və Əli Səfərov, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin dekanı Cavid İsmayılov, Naxçıvan Müəllimlər İnstitutunun Təbiət və incəsənət fakültəsinin dekanı Rövşən Vəliyev və digərləri çıxış edərək sərgini təşkil olunan gənc rəssamlar barədə fikirlərini bölüşüb, onlara tövsiyələrini verib, fəaliyyətlərində uğurlar arzulayıblar.

Gənclərə Rəssamlar Birliyinin diplomları və Gənc rəssamlar bölməsinə üzvlük vəsiqələri təqdim edildikdən sonra sərgiyə baxış olub. Sərgidə 25 gənc rəssamın dekorativ-tətbiqi sənət, rəngkarlıq, qrafika növünə aid mənzərə, natürmort, portret janrlarında müxtəlif mövzularda 75 rəsm əsəri nümayiş etdirilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Seminar-müşavirə



Naxçıvan Şəhər Nəqliyyat İdarəsində payız-qış mövsümünə hazırlığın vəziyyəti və lisenziyaların tələblərinə əməl olunması ilə bağlı seminar-müşavirə keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov çıxış edərək bildirib ki, muxtar respublikanın rayon və kəndlərinə, habelə şəhərdaxili 1 nömrəli marşrutda işləyən mikroavtobusların payız-qış mövsümünə hazırlığına nəzarət məqsədilə sürücülərlə əlaqə saxlanılıb. Müqavilə şərtlərinə uyğun olaraq həmin avtomaşınlara texniki qulluq göstərilib, lazım olan təmir işləri həyata keçirilib. Xidmətin lisenziyası ilə işləyən bütün avtonəqliyyat vasitələrinin saz vəziyyətə gətirilməsi işi təmin ediləcək, payız-qış mövsümünə hazırlıq tam başa çatdırılacaq.

Dövlət Nəqliyyat Xidmətinin sektor müdiri Zaur Əliyev çıxışında qeyd edib ki, 2018-ci il noyabr ayının 1-dən etibarən avtomobil nəqliyyatı ilə sərnişin daşınması fəaliyyətinə lisenziyanın verilməsi həyata keçirilir. 2020-ci ilin noyabr ayından lisenziya müddəti bitmiş sahibkarlara yeni lisenziyanın verilməsi işinə başlanılıb. Hər bir sahibkar avtomobilin texniki baxışdan keçməsi haqqında arayışı və avtomobilə aid digər sənədlərin surətlərini Dövlət Nəqliyyat Xidmətinə təqdim etməklə lisenziya əldə edə bilər.

Sonda suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## *İtmişdir*

Şərur rayonunun Kürkəndində yaşayan Məhərrəmova Tutu Haqverdi qızının adına olan JN-244A nömrəli 10214048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Kosacan kənd sakini Müslümov Zahid Müslüm oğlunun adına olan JN-254 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 5, ev 17A-da yaşamış Fərzalıyeva Məleykə Məşədiməhəmməd qızının adına olan evin 14413 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Nəcəfov Nağı İsgəndər oğlunun adına olan Az.85T-389 seriya nömrəli traktorun nömrəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 878